# "Qoridən gələn qatar"ın təqdimatı olub

Dünən Firudin bəy Köçərli adına Azərbaycan Dövlət Uşaq Kitabxanasında yazıçı-publisist Şəmistan Nəzirlinin "Qoridən gələn qatar" kitabının təqdimat mərasimi keçirilib. Kitabxananın müdiri Firuzə Quliyeva mərasimi giriş sözü ilə açaraq, yeni işıq üzü görmüş kitab və müəllif barədə ətraflı məlumat verib. Bildirib ki, yazıçı-publisist Şəmistan Nəzirli hələ tələbəlik illərindən maraqlandığı Qori və Qazax seminariyaları haqqında sənədli povestinin yeni nəşrini oxuculara təqdim edib. Onun sözlərinə görə, povestdə xalqımızın maarif tarixini özündə yaşadan toz basmış arxiv sənədlərindən, keçmiş seminaristlərin nağılabənzər söhbətlərindən və xatirələrindən əsərdə geniş istifadə olunub. F.Quliyeva yazıçının F.Köçərlidən bəhs edən yeni kitabının təqdimat mərasiminin rəhbərlik etdiyi kitabxanada keçirilməsindən qürur hissi keçirdiyini də dilə gətirib: "Ş.Nəzirli Azərbaycan hərb tarixinin və Səməd Vurğun ömrünün araşdırıcısıdır. Hər iki sahədə silsilə əsərlər müəllifidir. Bu günlərdə isə o, "Qoridən gələn qatar" adlı yeni kitabı ilə oxucuların görüşünə gəlib. "Şərq-qərb" nəşriyyat evində nəfis tərtibatda 500 nüsxədə çap olunan kitabın rəyçisi filologiya elmləri namizədi, dosent Mahmud Mahmudovdur. Onun yeni povestində fədakar müəllim, tələbələrin sevimlisi, maarifçi ziyalı, 1918-ci ildə minbir əziyyətlə seminariyanı Qoridən Azərbaycana köçürən Firudin bəy Köçərlinin gənclərimizin savadlanması yolunda çəkdiyi əziyyətlər, o cümlədən 1920-ci ilin iyununda bolşevik-daşnaklar tərəfindən ədibin haqsız güllələnməsi ilk dəfə olaraq sənədlər əsasında qələmə alınıb. Tədqiqatçı F.Köçərlinin həyat və yaradıcılığını qələmə almaqla yanaşı, onun haqqında ümumilikdə 700-ə yaxın fotoşəkil də toplayıb. Bu şəkillər arasından 82-ni yeni kitabında dərc etdirməklə oxucularda F.Köçərlinin keçdiyi şərəfli ömür yolu barədə əyani təsəvvür yaradıb".

Akademik Hüseyn Əhmədov müəllifin tədqiq etdiyi F.Köçərli haqqında məlumat verərək, görkəmli ədibin, vaxtilə seminariya müəllimləri tərəfindən şəhərbəşəhər, kəndbəkənd gəzib təhsil almağa cəlb etdiyi yüzlərlə yeniyetmədən biri olduğunu diqqətə çatdırıb. Bildirib ki, öz bilik və bacarığı ilə çoxlarından fərqlənən F.Köçərli ona göstərilən etimadı doğruldaraq, sonradan məşhur Qori seminariyasının ilk məzunları sırasında yer alıb: "Qori Seminariyası Azərbaycan tarixində müstəsna xidməti olan təhsil ocağıdır. 1879-cu ildə fəaliyyətə başlayan seminariya 39 il ərzində 250-yə yaxın azərbaycanlı gəncə təhsil verib. Həmin gənclər sonrakı illərdə ömür-günlərini öz xalqı yolunda şam kimi yandırıblar. Təəccüblü deyil ki, XIX-XX əsr Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, ictimaiyyətinin ən görkəmli simaları məhz seminariyada təhsil alan gənclərimiz olub. Ona görə də belə insanların həyat və fəaliyyətlərinin tədqiq edilərək gələcək nəsillərə çatdırılması olduqca vacibdir. Bunun üçün isə səbir və təmkin nümayiş etdirərək, yorulmadan arxiv sənədləri ilə işləmək, xalqımız üçün dəyərli hesab olunan materialları üzə çıxararaq qələmə almaq, gələcək nəsillərə çatdırmaq gərəkdir. Bütün bu xüsusiyyətlər yazıçı-publisist Ş.Nəzirlidə cəmləşdiyindən o, F.Köçərli haqqında gözəl bir tədqiqat əsəri ərsəyə gətirib".




Professor Şamil Vəliyev Ş.Nəzirlini növbəti kitabının işıq üzü görməsi münasibətilə müəllifi təbrik edərək, vaxtilə azərbaycanlı gənclərin təhsil almasında özünəməxsus rolu olan Qori Seminariyasının əhəmiyyətindən danışıb. Bildirib ki, bu seminariyanı məzunları XIX-XX-əsrdə yeni azərbaycanlı imicini, o cümlədən Azərbaycan xalqının milli kimliyinin formalaşdırıblar: "Azərbaycan cəmiyyətinin istənilən sahəsində tədqiqat aparsaq görərik ki, həmin sahənin inkişaf tarixi Qori seminariyasının hansısa məzununun adı ilə bağlıdır. Azərbaycan mətbuatının inkişafında da onların təsiri olub. Məhz onlar mətbuatı Azərbaycanın ictimai fikir institutuna çeviriblər. Sevindirici haldır ki, Ş.Nəzirli yeni kitabında konkret tarixi faktlara müraciət edərək, Qori Seminariyasının məzunu, xalqımızın maarifpərvər oğlu F.Köçərlinin ömür yolunu ədəbi-bədii üslubda oxuculara çatdırıb. Müəllif böyük zəhmətə qatlaşaraq, keçmiş SSRİ məkanındakı bir çox şəhərlərə səfər edib, oranın dövlət arxivlərindən xalqımız üçün dəyərli məlumatları əldə edib. Bu mənada müəllifin yeni yaradıcılığını sıradan bir əsər kimi qiymətləndirmək olmaz. Bu povest bizim tarixi dərdlərimizə işıq salan sanballı əsərdir". Şair Tapdıq Abbas "Qoridən gələn qatar" kitabından söhbət açarkən, Azərbaycan mədəniyyətinin inkişafına təkan verən maarifpərvər ziyalıların ömür yolunun, onların xalqı üçün etdikləri təmənnasız xidmətlərin geniş ictimaiyyətə çatdırılmasını əvəzi olunmaz böyük bir iş adlandırıb. Yazıçı Nüşabə Məmmədli tədqiqatçı Ş.Nəzirlinin həm ədalətli, həm də sözün düzünü deyən bir ziyalı olduğunu vurğulayıb. Bildirib ki, müəllif hər zaman çətin tədqiqatlara girişərək, dəyərli yaradıcılıq nümunəsi ortaya çıxarır. Bu baxımdan o, müəllifin yeni kitabında xalqımız üçün çox dəyərli arxiv məlumatlarının yer aldığını dilə gətirib.

Təqdimat mərasimində yazıçı Teyyub Qurban, şair Qəşəm İsabəyli və başqaları da çıxış edərək yeni kitabın əhəmiyyətindən danışıblar. Tədbirin sonunda yazıçı-publisist Şəmistan Nəzirli çıxış edərək, ona göstərilən diqqətə və müəllifi olduğu kitab haqqında xoş sözlərə görə, kitabxana rəhbərliyinə, həmçinin də iştirakçılara öz minnətdarlığını bildirib.

Mərasimdə Şəmistan Nəzirliyə kitabxana rəhbərliyi tərəfindən xatirə hədiyyəsi verilib.

**Rufik İSMAYILOV**